# HACIQABUL

№ 11
(670)

15 iyul
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Azərbaycanın inkişafı uğurla davam edib, ölkəmiz daha da güclənib



***Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə ki, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, eyni zamanda, xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində öz gələcəyini qurur.***

Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Dostlarımızın sayı artır və beynəlxalq təşkilatlarda da bizim fəaliyyətimiz çox müsbətdir. Mən ilin altı ayında 10 xarici səfər etmişəm - beş Avropa ölkəsinə, beş müsəlman ölkəsinə. Bu səfərlərimin coğrafiyası əslində bizim xarici siyasətimizin nə qədər düzgün və milli maraqlara xidmət edən siyasət olduğunu bir daha təsdiqləyir. Bu ilin birinci yarısında doqquz xarici dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq tədbirlər, əslində, Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərir.

Növbəti təxribat bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş verdi. Bu, hərbi cinayətdir. Bu, erməni faşizminin təzahürüdür və bu cinayətə görə Ermənistan öz cavabını almışdır. Bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və onun nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi. Bu cinayət cavabsız qalmadı. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, onun nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq.

Bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Yeni silahlar, ən müasir texnika alınır. Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik.

Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Bu, bizim şanlı tariximizə qızıl hərflərlə yazılan hadisədir. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrılmışdır. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır.

Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Beş milyondan çox insan bu il pulsuz müayinədən keçmişdir. Birinci altı ayda 26 tibb müəssisəsi tikilmiş və təmir edilmişdir. İyirmidən çox modul tipli məktəb tikilmişdir. İlin sonuna qədər onların sayı 100-ə çatmalıdır.

Qeyri-neft iqtisadiyyatımızda 1,7 faiz artım bizim apardığımız iqtisadi islahatların nəticəsidir. Qeyri-neft sənayesi 4,4 faiz artıb. Bu ilin altı ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Valyuta ehtiyatlarımız 3 milyard dollar artıb və bu günə 40,6 milyard dollar təşkil edir. Bu çox gözəl göstəricidir.

Heç vaxt populist işlərlə məşğul olmamışıq. Biz hər zaman ölkəmizin uzunmüddətli inkişafı ilə məşğul olmuşuq. Biz həm qənaət etdik, həm islahatlar apardıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə vəsait ayırdıq. Əlbəttə ki, biz idxalı azaltmışıq, ixracı isə artırmışıq. Büdcə ilə bağlı heç bir problem yoxdur. Ona görə Neft Fondundan büdcəyə transferlər də azaldı.

Bu il 122 min yeni iş yeri açılmışdır ki, onlardan 101 mini daimi iş yeridir. Bu ilin altı ayında ixrac 36 faiz artıb. Qeyri-neft ixracı altı ayda 27 faiz artıb. İdxal 15 faiz azalıbdır. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir. Kənd təsərrüfatı da 2,2 faiz artıbdır.

Bunlar dünya miqyasında bu gün ən gözəl göstəricilərdir. Bunu o ölkə əldə edib ki, biz hələ enerji amilindən asılıyıq. O ölkə əldə edib ki, onun gəlirləri son iki il ərzində üç-dörd dəfə azalıb. Bax budur bizim siyasətimiz, gördüyümüz işlər və əldə etdiyimiz nəticələr.

Hər bir dövlət məmurunu işə təyin edəndə verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar və həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazı var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm ki, o dövlət məmuru öz ailə üzvlərini idarə edə bilmirsə, vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım onu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın.

Bu ilin 6 ayının yekunları məni sevindirir. Nazirlər Kabinetinin iclası, o cümlədən xalqa verilən hesabatdır. Biz bunu müntəzəm olaraq edirik. Eyni zamanda, verdiyim tapşırıqlar yerinə yetirilməlidir ki, biz müsbət dinamikanı daha da artıraq.

## 22 iyul-Milli Mətbuat günüdür

# Region mətbuatının tarixi

***Milli mətbuatımızın ilk qaranquşu olan, XIX əsr Azərbaycan ictimai-siyasi həyatında mühüm rol oynayan "Əkinçi" qəzetinin ilk sayının işıq üzü gördüyü 22 iyul günü ölkəmizdə milli mətbuat günü kimi qeyd edilir. Xalqı zülmətdən işığa çıxaran, milli oyanışa təkan verən "ideyaları öldürmək olmaz" şüarı ilə səsi yüksəkliklərə ucalan Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etdirməklə Azərbaycan milli mətbuatının əsasını qoydu.***

Azərbaycan milli mətbuatı hər zaman xalqımızın maariflənməsində, irəliyə doğru can atmasında, xalqın övladlarının təhsilə cəlb edilməsində mühüm rol oynadı. Ana dilimizdə ilk qəzet olan "Əkinçi" xalqı cəhalətdən, qəflət yuxusundan, qaranlıqlardan aydın sabahlara doğru aparan bir yola çevrildi, XIX əsr Azərbaycan ictimai-siyasi həyatının aynası, xalqın inam, güvənc yeri, bu günümüzün maddi və mənəvi sərvəti oldu.Bu gün milli mətbuatımızın ilk qaranquşu kimi XIX əsr Azərbaycan ictimai-siyasi həyatında mühüm rol oynayan "Əkinçi" qəzetinin adı tarixə qovuşmuşdur. Həsən bəy Zərdabi Azərbaycan ədəbi mühitində əbədiyaşarlıq qazandı, mənəvi-mədəni sərvətlər xəzinəsinə qiymətli töhfə verdi. 1875-ci il 22 iyul tarixini əbədiləşdirdi. Artıq Azərbaycanda 22 iyul tarixinin milli mətbuat günü kimi qeyd olunması bir ənənəyə çevrilmişdir.

Bu gün Azərbaycanda jurnalist adını daşıyan hər bir qələm sahibinə bu peşə bayramından pay düşür.

Təntənə ilə qeyd olunan bu günün əsasını əbədiyaşar liderimiz Heydər Əliyev qoymuşdur. 2000-ci ildə milli mətbuatımızın 125 illiyinin keçirilməsi haqqında sərəncam imzalamaqla Azərbaycanın əlamətdar günlər təqviminə yeni bir peşə bayramını əlavə etmişdir.

**(davamı səh. 2-də)**

# Region mətbuatının tarixi



(əvvəli səh. 1-də)

Milli mətbuat günü ərəfəsində Azərbaycanın bütün bölgələrində olduğu kimi fəaliyyət göstərdiyim Hacıqabul rayonunda da bu peşə bayramı böyük ruh yüksəkliyi ilə qeyd olunur. Bu ərəfələrdə redaksiya heyəti qəzetin fəal oxucuları ilə, yerlərdə qəzetin fəal yazarları ilə görüşlər və onlarla oxucu konfransı keçirir.

Əslində rayon qəzetinin, rayon mətbuatının tarixi belə qısa və yaxın deyil. Rayon mətbuatı Qazı Məmməd rayonu yarandığı vaxtdan dərc olunmağa başlayıb.

İlk rayon mətbuatı "Qazıməmməd bolşeviki", sonralar "Kommunizm yolu", bu gün isə "Hacıqabul" adı ilə nəşr olunur.

"Qazıməmməd bolşeviki" 1940-cı ildən nəşr olunub və 1941 ildə bağlanıb. Müharibə zamanı qəzetin nəşri dayandırılıb.

"Qazıməmməd bolşeviki" yenidən 1946-cı ildə işıq üzü görüb.

Qəzet 1953-cü ildən 1959-cu ilə kimi - Qazıməmməd rayonu ləğv edilənə qədər "Kommunizm yolu" başlığıyla çap olunub.1990-cı ildə Hacıqabul yenidən rayon statusu alandan sonra 1991-ci ilin 28 mayında "Hacıqabul" başlığı adı altında dərc olunan qəzet Hacıqabulun yarımçıq qalmış mətbuatını yenidən bərpa etdi. Daim oxucularla əməkdaşlığa çalışan "Hacıqabul" oxucular arasında körpü yaratmağa nail olub, ziyalıların, rayon ictimaiyyətinin sevgisini qazanıb. Rayon mətbuatı daim səhifələrində istər rayon mərkəzində, istərsə də kəndlərdə olan yenilikləri, problemləri işıqlandırıb, iqtisadi inkişaf, kənd təsərrüfatında görülən işlər, rayonda keçirilən tədbirlər operativ olaraq oxuculara çatdırılır.

Hazırda 26 illik keşməkeşli, enişli-yoxuşlu bir yol keçən "Hacıqabul" böyük ruh yüksəkliyi ilə, həm respublika rəhbərliyinin, həm də rayon rəhbərliyinin qayğı və dəstəyini hiss edərək dərc olunur. Qəzet öz nəşrində dəyişiklik edərək dövriyyəliyini artırıb. Rəngarəngliyi ilə ötən illərdəki saylardan fərqlənir. Xüsusən də son illər ölkə Prezidenti cənab İlham Əliyevin Hacıqabul rayonuna olan səfərlərindən sonra qəzetin yüksək səviyyədə jurnal formatında olan buraxılışları çap edilib.

Qəzet redaksiyası yeni binayla, inventarla, xidməti minik avtomobili ilə təmin olunmuşdur. Redaksiyaya Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondu tərəfindən Milli Mətbuatın 135 illiyi münasibətilə möhtərəm Prezidentimizin sərəncamının icrasına əsasən maddi texniki bazanı möhkəmləndirmək məqsədilə lazımi avadanlıq almaq üçün vəsait verilmişdir.

Bu gün "Hacıqabul" söz və mətbuat azadlığına riayət edərək, sakinlərə - oxuculara şərəflə xidmət edir. Daim redaksiya heyəti çalışır ki, dövlətə, dövlətçiliyə sadiq olaraq çalışsın, onlara olan etimadı layiqincə doğrultsun.

Həmkarlarımı qarşıdan gələn Mətbuat günü münasibətilə təbrik edirəm. Gözlərinizdən nur, qollarınızdan qüvvət, düşünən beyninizdən zəka əskik olmasın deyirəm.

***Xuraman Feyruzqızı,***
***"Hacıqabul"***
***qəzetinin baş redaktoru***



# Açıq hökumətin təşviqinə dair tədbir keçirildi

***"Cəmiyyətin və vətəndaş münasibətlərinin inkişafı" İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə həyata keçirdiyi "Açıq Hökumətin təşviqinə dair" Milli Fəaliyyət Planı üzrə İctimai iştirakçılığın genişləndirilməsi ilə bağlı fəaliyyətin monitorinqi" layihəsi çərçivəsində rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının əməkdaşı İndira Şəmsivari mövzu ilə əlaqədar məruzə etmiş, bu sahədə mövcud qanunvericiliyin təkləbləri barədə məlumat vermişdir. Sonda tədbir iştiraçılarının çoxsaylı sualları cavablandırılmışdır.***

Tədbirdə layihə çərçivəsində hazırlanmış sorğu anketləri paylanmış və sorğu anketinin sualları iştiraksılar tərəfindən cavablandırılmışdır.

Layihə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn məsələlər üzrə təşəbbüslərə dəstək olmaq, "İctimai iştirakçılıq haqqında qanunun" tətbiqinə, ictimai iştirakçılığın genişlənməsinə şərait yaratmaq, ictimai şuraların yaradılması ilə bağlı real vəziyyəti öyrənmək ictimai şuraların yaradılması prosesini sürətləndirmək, ölkədə səmərəli və effektli idarəetmə prosesində, qərarların hazırlanması və qəbulunda vətəndaş cəmiyyətinin daha geniş şəkildə cəlb edilməsi, eyni zamanda icra hakimiyyəti strukturlarında ictimai nəzarətin səmərəli tətbiqi, həmçinin onların fəaliyyətində şəffaflığın artırılması, bütün QHT-lərin, ictimai təşkilatların müvafiq dövlət qurumlarının diqqətini bu problemə cəlb etmək, ümumi səyləri birləşdirərək birgə fəaliyyətə nail olmaq, fəaliyyətin effektivliyini artırmaq məqsədi ilə həyata keçirilir.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev***
***Mərkəzinin direktoru***

# Baramaçılıq inkişaf etdirilir



***Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlığın başlıca şərtidir. Bu baxımdan ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində qazanılan uğurlar deməyə əsas verir ki, artıq bu sahədə heç bir çətinlik yoxdur. Bu sahədə qazanılan uğurlarda Hacıqabul rayonunun da payı var. Rayon sakinləri dövlətin göstərdiyi dəstəkdən yararlanaraq yeni-yeni nailiyyətlər qazanırlar. Hazırda rayonda kənd təsərrüfatı işlərinin qızğın çağıdır. Təsərrüfatın elə bir sahəsi yoxdur ki, orada qızğın iş getməsin. Əkinlərə yüksək aqrotexniki qaydada qulluq göstərilir, daha çox məhsul əldə etmək uğrunda mübarizə aparılır.***

Rayonda qeyri-ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi də diqqət mərkəzindədir. Xüsusilə iqtisadi cəhətdən daha səmərəli olan baramaçılığın inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir. Baramaçılıq bu il rayonda geniş vüsət almışdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Respublikada "Baramaçılığın inkişaf etdirmək tədbirləri haqqında" verdiyi sərəncama uyğun olaraq Hacıqabul rayonunda da son 2 il ərzində əhəmiyyətli işlər görülmüşdür. Rayonun 4 inzibati ərazi vahidi üzrə 5 gümçü barama istehsalı ilə məşğul olub. Cari mövsümdə Ələtli ərazisində Rüslan Qədirov 6 qutu üpəkqurdu götürüb 60,5 kq məhsul tədarük edərək təhvil verib. Talış qəsəbəsində gümçü Əlizadə Ağaqardaş 5 qutu ipəkqurdu götürərək 53 kq, Meyniman kənd sakini Famil Cəfərov 1qutu, Mirzəli Cəfərov isə 5 qutu ipəkqurdu götürmüş, birlikdə 103,5 kq məhsul tədarük edərək təhvil vermişdir. Abdulabad kəndində İsmayıl İsmayılov 3 qutu baramaqurdundan 33 kq məhsul tədarük edərək təhvil vermişlər.

Ümumiyyətlə, bu günədək gümçülərimiz rayon üzrə 250 kq məhsul tədarük edərək təhvil vermişlər. Gələn ilin məhsulu üçün bu il rayon ərazisində Çin Xalq Respublikasından gətirilmiş 20 min ədəd tut tingi əkilmişdir. Bunlardan 5 mini Abdulabad, 5 mini Navahı, 10 min ədəd isə Meyniman kəndlərində əkilmişdir. Əkilən tut tinglərinin dibləri yumşaldılır, suvarılır, onlara vaxtlı-vaxtında gübrələr verilir. Tut tinglərinə mütəmadi olaraq aqrotexniki qulluqlar edilir.

***Nazim Fətixanoğlu***

# Gənclərimiz hər zaman Vətənin müdafiəsinə hazırdır

"Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il iyul ayının 1-dən 30-dək həqiqi hərbi xidmətə çağırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Hacıqabul rayonu ərazisində iyulun 1-dən 30-dək vətəndaşların Azərbaycan Respublikası Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırışı müvəffəqiyyətlə həyata keçirilir. Bu münasibətlə keçirilən mərasimdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Hacıqabul rayon şöbəsinin rəisi, mayor Nurlan Abbasov çıxış edərək respublikada vətənpərvərlik hissinin artırılması istiqamətində ardıcıl tədbirlər görüldüyünü qeyd etdi, bildirdi ki, ölkəmizin hər yerində olduğu kimi Hacıqabulda da vətənpərvər, doğma torpaq uğrunda canından keçməyə hazır olan minlərlə gənclərimiz var. Bu gün çağırış yaşı tamam olan gənclərimizin həyatında ən əlamətdar, ən şərəfli günlərdən biridir. Onlar Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizin heyətində həqiqi hərbi xidmətə yollanırlar. Bu gün valideynlər də həyacanlı, sevincli anlar yaşayırlar. Silahlı Qüvvələrin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Bu gün Azərbaycan Ordusu Regionun güclü ordularındandır. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iradəsi və qayğısı sayəsində Azərbaycan Ordusu hazırda güclü maddi-texniki bazaya malikdir və ən müasir silah sursatla təmin olunmaqdadır. Ordumuz ölkəni istənilən təcavüzdən qorumağa qadirdir. Bu gün Hacıqabul rayonundan 138 nəfər gənc Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət etmək üçün yola düşəcəkdir.

Çağırışçılarla söhbət edirik. Nadir Ələkbərov, Həsən Həsənov, Əmrah Qubadov, Əbülfəz Əliyev, Coşğun Kərimov, Tural Məhərrəmli və başqalarının üzlərində sevinc, fərəh oxunur. Gənclərimiz bildirirlər ki, hərbi xidmətlərini nizam- intizamla, şərəf və vicdanla, doğma Vətənimizə, dövlətimizə sədaqət prinsipi ilə başa vuracaqlar.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Hacıqabul rayon şöbəsi çağırış bölməsinin rəisi, mayon Əfran Nəbiyev, bölmənin zabiti, kapitan Nadir Əzizov həqiqi hərbi xidmətə yola düşən gənclərimizə uğurlu xidmət arzuladılar.

***Nazim Fətixanoğlu***

# Günün tələbləri səviyyəsində



***Meliorasiya və Su Təsərrüfatı İşçiləri o insanlardır ki, məhz onların gərgin əməyi sayəsində susuz çöllər çana gəlir, ərazilər su ilə təmin olunur, şorlaşmış sahələr duzlardan təmizlənir, bataqlıqlar qurudulur. Bəndlər və dambalar tikməklə çayların axınları təmizlənir və ölkə əhalisinin ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə etbarlı təminatı üçün əlverişli şərait yaradılır.***

Pirsaat Qış Otlaqlarının Su ilə Təminatı İdarəsinin əməkçiləri uzun illərdir ki, heyvandarlıq məhsullarını artırmaq, ölkədə ərzaq bolluğu yaradılmasına yardımçı olmaq kimi vacib işdə fermerlərə əlverişlı şərait yaradılmasında gərgin səylə çalışırlar. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeçiliyində olan idarə kollektivinin əsas məqsədi Pirsaat qış otlaqları massivində meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətləri göstərmək, qış otlaqlarında su təminatını həyata keçirmək, mülkiyyətdə olan meliorasiya və irriqasiya sistemlərinin inkişafı ilə bağlı texniki təşkilatı tədbirlər görməkdən ibarətdir.

25 ilə yaxın bir müddətdə kollektivə rəhbərlik edən, Tərəqqi medallı Mafisət Cəfərov bildirir ki, idarənin xidmət göstərdiyi qışlaq sahələri Quba, Xaçmaz, Qobustan, Şamaxı, Hacıqabul rayonlarının kəndli-fermer və şəxsi təsərrüfatlarına aiddir. Onlar su istehlakçılarıdır. Qış otlaqlarında qışlama keçirən xırda buynuzlu mal-qaranın və onlara xidmət edən işçilərin suya olan tələbatı kollektivimiz tərəfindən lazımınca ödənilir. Xidmət göstərdiyimiz ərazi isə böyükdür, 133 min hektar qışlaq sahəsini əhatə edir.

Mafisət Cəfərov qeyd etdi ki, geniş ərazidə su təminatını uğurla həyata keçirmək üçün ilk növbədə nasos stansiyalarının daima işlək vəziyyətdə olmasına nail olmaq lazımdır. Nasos stansiyaları işlədən elektrik avadanlıqlarına, digər qurğulara vaxtaşırı texniki qulluq göstərmək, cəmiyyət tərəfindən verilən elektrik enerjisi limitindən səmərəli istifadə edib israfçılığa, itkiyə yol verməmək üçün bütün imkanlardan maksimum istifadə edirik. Su obyektlərindən götürülən su müəyyən olunmuş qaydada bölüşdürülür, sudan istifadəyə nəzarət olunur. Su götürdüyümüz obyektlər Pisaat su anbarı, Pirsaat çayı və Hacıqədirli gölüdür. İdarənin balansında 4 nasos stansiyası var. 2017-ci ilin ilk günlərindən carı və əsaslı təmir işlərinə başlanılmışdır. Su borular vasitəsilə nəql olunur. Boru kəmərlərində əsaslı və cari təmir işləri yerinə yetirilmiş, hidrotexniki qurğular, nasos stansiyaları, güc transformatorları təmir olunaraq saz hala gətirilmişdir. Xidmət işləri mürəkkəb və çoxsahəlidir. Məsələn, təsərrüfatlara xidmət edən suat məntəqələri, nohurlar var ki, su götürərkən bu obyektlərin də saz vəziyyətdə olması vacib şərtdir. Bu obyektlər alaqlardan təmizlənmişdir. Digər su mənbəyi olan Pirsaat su anbarında lildən təmizlənmə və yenidənqurma işləri başa çatdırılmışdır. Mafisət Cəfərov bildirdi ki, qış otlaqlarının vaxtlı-vaxtında su ilə təmin edilməsində, bu sahədə xidməti işlərin lazımı ardıcıllıq və sistematik şəkildə görülməsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri, respublikanın əməkdar mühəndisi Əhməd Əhmədzadənin, Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarovun kollektivimizə daim qayğı və köməklərini hiss edirik. Biz bundan sonra da əməli fəaliyyətimizlə, gündəlik işimizlə dövlətimiz tərəfindən bizə göstərilən qayğıya cavab verməyə çalışacağıq.

***Nazim Fətixanoğlu***

# Pambıqçılıq yeni inkişaf mərhələsində



Qarasu kəndində bu ildən etibarən pambıq əkirəm, pambıqçılıqla məşğul oluram. 85 hektar sahədə pambıq əkmişəm. 55 hektar ərazini Hacıqabul KT MMC ilə bağladığım müqavilə əsasında, 30 hektar sahəni isə Sabirabad MKT MMC ilə bağlanmış müqavilə əsasında əkib becərirəm. Pambıq əkinlərinə aqrotexniki tələblər səviyyəsinə qulluqlar edir, becərmə işlərini vaxtlı-vaxtında aparıram. Qarasu kənd sakinlərindən müəyyən işçi qüvvəsini bu işlərə cəlb etmişəm. Hazırda pambıq əkinlərinə 3-cü kultivasiya çəkilir, yemləmə gübrələri verilir, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri həyata keçirilir, əkin yerlərində 2-ci suvarma aparılır. Aprel ayından çiyid səpininə başlamışıq. Pambıq əkinlərində aqrotexniki tədbirləri optimal müddətdə vaxtinda həyata keçirmək üçün bütün qüvvələri səfərbərliyə almışıq. Rayon Kənd Təsərrüfatı İdarəsinin mütəxəssisləri, xüsusən idarənin bitkiçilik sektorunun baş məsləhətçisi Əliabbas Məmmədov, idarə rəisi Nurbala Mirzəyev pambığın becərilməsi zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılmasında bizə lazımı köməkliklər edirlər. Etiraf edim ki, əvvəllər pambıqçılıqla məşğul olmamışam. Ancaq son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlhan Əliyevin pambıqçılığın inkişafına böyük önəm verməsi, bu sahəyə xüsusi qayğı və diqqət göstərməsi bir kənd adamı kimi pambıq əkib becərməyə məni də həvəsləndirmişdir. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən ötən əsrin 70-ci illərində qoyulan pambıqçılığın inkişaf etdirilməsi yeni şəraitdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimizin Sabirabadda və Saatlıda keçirilən ümumrespublika müşavirələrində pambığın əvvəlki şöhrətini qaytarmaq, ölkənin iqtisadi qüdrətinin artırılmasında pambığın rolu və əhəmiyyəti barədə söylədiyi qiymətli, dəyərli fikir və mülahizələr kənd əməkçilərini, pambıq əkib becərən icarədarları, fermerləri daha yaxşı işləməyə ruhlandırmışdır. Pambıq daha çox günəş hərarəti, su tələb edən bitkidir. Vegetasiya dövründən, pambığın əkilməsindən-çiyidin səpilməsindən yetişmə dövrünə qədər lazımi qulluqları aqrotexniki qaydalar əsasında yerinə yetirmişik.

Çalışacağıq ki, hər hektarın məhsuldarlığını keçən ilkinə nisbətən artıraq.Yüksək keyfiyyətli məhsul əldə etmək üçün var qüvvə ilə çalışırıq və əminəm ki, buna nail olacağıq.

***Murad Abdullayev,***
***Qarasu kənd sakini, icarədar***

# Həmyerlilərinin yaddaşından itməyən itkinimiz



***Qarabağ müharibəsində itkin düşmüş həmyerlimiz Nəsimi Allahverdi oğlu Allahverdiyevin doğum tarixinin 43-cü ildönümü günündə rayon Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin kitabxanaçısı Pakizə Babakişiyevanın təşəbbüsü və təşkilatçılığı ilə Nəsiminin ata yurdunda onun yaxınları ilə görüş keçirildi.***

Hazırda Nəsiminin ata evinin fasadında onun şərəfinə vurulmuş xatirə lövhəsi var, zamanında Təbriz küçəsi adlanmış doğma küçəsi də indi onun adını daşıyır. Bununla belə, yaxınlarının maddi vəziyyətinin ağır olmasını, qardaşının işsizliyini də əlavə etmək lazımdır...

İtkinimizin bacıları və qardaşı ilə söhbətdən məlum oldu ki, Nəsiminin itkin düşdüyü bu 23 ildə onun barəsində, 1997-ci ildə nəşr olunmuş “Oğul dağı” kitabındakı yarım səhifəlik oçerk istisna olunmaqla, demək olar, heç nə yazılmayıb, ictimai səviyyədə heç nə danışılmayıb...

Həmin qısa oçerkə əsasən, Nəsimi 1994-cü ildə Hacıqabulda (keçmiş Qazıməmmədə) dünyaya gəlib, 1991-ci ildə o vaxtkı 10 saylı dəmiryol, yəni indiki 7 saylı şəhər orta məktəbini bitirib.

1992-ci il may ayının 22-də həqiqi hərbi xidmətə çağırılıb, Bakıda, sonra isə Neftçalada 3 aylıq təlim hazırlığının ardından üç ay ərzində Fizuli rayonu ərazisində gedən döyüşlərdə iştirak edib.

Neftçalaya qayıdıb, 10 gün istirahət etdikdən sonra Nəsimi yenidən döyüş bölgəsinə dönərək, bu dəfə Qubadlı, Cəbrayıl, Fizuli rayonlarının müdafiəsində vuruşub.

Sumqayıt yaxınlığındakı Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən hərbi hissədə bir ay dincəldikdən sonra Nəsimi Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək, 1994-cü il aprel ayınn 16-da Çəmənli, Güllücə-İlxıçı kəndləri ərazisində gedən döyüşlərdə itkin düşüb.

Nəsiminin faciəvi taleyi atası, İkinci Dünya Müharibəsi iştirakçısı Allahverdi kişinin tezliklə həyatdan köçməsinə səbəb olmuş, anası Umleyla xanım isə oğlunun itkin düşməsi fikrilə razılaşmamış, illər uzunu övladının taleyilə bağlı müxtəlif ünvanlara müraciətlər etmişdir.

(davamı səh. 4-də)

# Hacıqabul rayonunun əsas demoqrafik göstəriciləri

***2017 - ci ilin əvvəlinə Hacıqabul rayon əhalisinin sayı 73,6 min nəfər olmuşdur. Əhalinin ümumi sayından 37,0 min nəfəri və ya 50,3 faizi şəhər, 36,6 min nəfəri və ya 49,7 faizi isə kənd sakinləridir.Ötən il ərzində rayon əhalisinin sayı 1,2 min nəfər və ya 1,6 faiz artmışdır.Belə ki, rayonumuzda əhalinin sıxlığı bir kvadrat kilometrə 46 nəfər təşkil etmişdir.***

Rayon əhalisinin 49,5 faizini kişilər, 50,5 faizini isə qadınlar təşkil edir. Statistik hesablamalara görə, rayonda hər min kişiyə 1022 nəfər qadın düşür. Rayon əhalisinin orta yaş həddi 32,0, o cümlədən , kişilər üçün 30,9 , qadınlar üçün isə 33,1 yaş təşkil edir. Rayon əhalisinin ümumi sayından 25,1 faizi 0-14 yaşda, 69,6 faizi 15-64 yaşda, 5,3 faizi isə 65 və yuxarı yaşda olanlardır. Rayon əhalisinin 27,4 faizini 14-29 yaşda olan gənclər təşkil edir. Onların da yarıdan bir qədər çoxu şəhər yerlərində yaşayırlar.

Artıq uzun illərdir ki, rayon əhalisinin artımı təbii hərəkət, məhz doğum hesabına baş verir. Rayonun demoqrafik göstəricilərinə nəzər salarkən görərik ki, 2016-cı il ərzində rayonda 1470 nəfər , gündə təqribən 4 körpə dünyaya gəlmişdir. Əvvəlki illə müqayisədə rayonda doğulanların sayı 1 nəfər azalmışdır. Doğulan körpələrin 53,1 faizini oğlanlar, 46,9 faizini isə qızlar təşkil etmişdir.

(davamı səh. 4-də)

# HACIQABUL

№ 11 (670) 15 iyul 2017-ci il


# Həmyerlilərinin yaddaşından itməyən itkinimiz

(əvvəli səh. 3-də)

Onun Respublika Qırmızı Aypara və Qırmızı Xaç Cəmiyyətinə ərizəsində göstərilir ki, Nəsimi 17 aprel 1994-cü il tarixdə 888-ci briqadanın 2-ci batalyonu tərkibində Nasosludan (Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən ) Ağdamın Güllücə və İlxıçı kəndləri uğrunda döyüşlərə yollanıb, aprelin 19-da hacıqabullu yaralı döyüşçü Eldar Elman oğlu Ağayevi döyüş meydanından çıxararaq, hərbi xəstəxanaya çatdırıb. 20 aprel tarixdə, saat 11 radələrində isə Nəsimi 4 yoldaşı (İlham Zöhrab oğlu İbişov, Asif Sakit oğlu İsmayılov, Azad Əhməd oğlu Süleymanov və Davud Qafar oğlu Əliyev) ilə birlikdə düşmənə əsir düşüb...

Nəsiminin 1992-ci ilin avqustuna və 1994-cü ilin martına aid olan və ailəsi tərəfindən qorunub saxlanmış məktublarında onun əsl döyüşçü əhval-ruhiyyəsi üzə çıxır, daim yaxınlarına ürək-dirək verir, onları sakitləşdirməyə çalışır...

...Nəsiminin ailə üzvlərilə söhbət edib, məlumat topladıqdan sonra rayon Şəhidlər xiyabanında olduq, Nəsiminin rəmzi lövhəsi qarşısına çiçək qoyduq, ruhuna dualar etdik...

Mərhum Allahverdi kişinin sənədlərilə tanış olarkən təqribən 40 il əvvəl onunla birlikdə o vaxtkı Əli Bayramlı DRES-ində, "Lvovenerjitəmir" müəssisəsində işlədiyimi xatırladım.

Faşizm üzərində Qələbənin 72-ci ildönümü günlərində onun bir qədər qeyri-adi hərbi xidmətinin qısa məğzini bu yazıda qeyd etməyi də məqsədəuyğun saydım:

***May,1939 - iyun, 1942 - Hərbi piyada məktəbinin kursantı;***

***İyun, 1942 - iyul, 1943 - 1368-ci alayda minomyot rotasının vzvod komandiri;***

***İyul, 1943 - noyabr, 1943 - Zabit heyətinin təkmilləşdirilməsi batalyonunda dinləyici;***

***Noyabr, 1943 - may, 1944 - Kiçik leytenantlar kursunda vzvod komandiri;***

***May, 1944 - avqust, 1944 - 4-cü əlahiddə ehtiyat zabit heyəti alayında ehtiyat;***

***Avqust,1944 - aprel, 1945 - 193-cü qvardiya atıcı alayında atıcı rotasının komandiri;***

***Aprel, 1945 - may, 1945 - 201-ci əlahiddə cərimə rotasında atıcı;***

***May, 1945 - iyun, 1946 - 63-cü geodeziya dəstəsində rota starşinası-topoqraf...***

İstər Nəsimi Allahverdi oğlu haqqında, istərsə də Allahverdi Ağababa oğlu barəsində yeni məlumatlar alacağımız təqdirdə müxtəlif müharibələrin iştirakçısı olmuş bu ata-oğul barəsində yenə yazmaq fikrindəyik...

***Məhəmməd Hüseynoğlu,***
***rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru***

# Hacıqabul rayonunun əsas demoqrafik göstəriciləri

(əvvəli səh. 3-də)

Rayon üzrə doğulan körpələrin 43,1 faizi şəhər yerlərində , 56,9 faizi isə kənd yerlərində qeydə alınmışdır. 2016-cı il ərzində rayonda 424 ölüm halları qeydə alınmışdır ki, bunlardan da 58,7 faizi kişilər , 41,3 faizi isə qadınlar olmuşdur. Rayon üzrə ölüm göstəricisinin 56,6 faizi şəhər yerlərində, 43,4 faizi isə kənd yerlərində qeydə alınmışdır. 2015-ci illə müqayisədə rayonda ölənlərin sayı 6 nəfər azalmışdır. 2016-cı ildə rayonda əhalinin təbii artım göstəricisi 1046 olmuşdur. Əvvəlki illə müqayisədə əhalinin təbii artım göstəricisi 5 nəfər artmışdır. Ötən il ərzində bir yaşa qədər ölən uşaqların sayı 15 nəfər olmuşdur. Bir yaşa qədər ölən uşaqların 46,7 faizini oğlanlar, digər 53,3 faizini isə qızlar təşkil etmişdir. Bu dövrdə bir yaşa qədər uşaq ölümü faktının 100,0 faizi də şəhər yerlərində qeydə alınmışdır. Əvvəllər olduğu kimi, körpə ölümünün əsas səbəbləri tənəffüs orqanlarının xəstəlikləri , perinatal dövrdə əmələ gələn xəstəliklər, eləcə də, yoluxucu və parazitar xəstəliklərdir. Respublika üzrə əhalinin 0,7 faizi , doğulanların 0,9 faizi , ölüm hallarının 0,7 faizi , təbii artımın 1,0 faizi , bir yaşa qədər ölən uşaqların sayının 1,0 faizi Hacıqabul rayonunun payına düşür.

Doğumun səviyyəsinə nigaha daxil olanların sayı da əhəmiyyətli dərəcədə təsir göstərir. 2014-cü ildə Hacıqabul rayonunda 497 nigah bağlanmış və 78 boşanma faktı qeydə alınmışdır. 2015-ci illə müqayisədə əhalinin hər 1000 nəfərinə nigahların sayı 8,2 - dən 6,8 - ə qədər azalmış, boşanmaların sayı isə 0,9 - dan 1,1 - ə qədər artmışdır. Ötən il ərzində Hacıqabul rayonu üzrə bağlanmış nigahların 53,1, boşanma faktlarının 56,4 faizi şəhər, müvafiq olaraq nigahların 46,9 , boşanmaların isə 43,6 faizi kənd yerlərində qeydə alınmışdır.

2016-cı il ərzində Respublika üzrə bağlanan nigahların 0,7 , qeydə alınmış boşanmaların isə 0,6 faizi Hacıqabul rayonunun payına düşür . Rayonda əhalinin ümumi say göstəricisinə təsir edən əsas amillərdən biri də əhalinin miqrasiyasıdır. 2016-cı ildə daimi yaşamaq üçün rayona 269 nəfər gəlmiş , 139 nəfər isə rayondan getmişdir. 2016-cı ildə Hacıqabul rayonunda miqrasiyanın müsbət saldosu 130 olmuşdur. 2017-ci il yanvarın 1 - i vəziyyətinə Hacıqabul rayonunda məskunlaşmış qaçqın və məcburi köçkünlərin sayı 2034 nəfər olmuşdur.

***Rayon Statistika İdarəsi***

# Ürəkdən minnətdaram!

Bu günlərdə bağda çinlə ot biçərkən qardaşım Eldar Zeynalovun ayaq nahiyəsinin damarı kəsilmiş, ehtiyatsızlıq üzündən qardaşım çoxlu qan itirmişdi. Onun həyatı tam təhlükə qarşısında idi, bir an vaxt itirmək olmazdı. Onu təcili surətdə Mərkəzi rayon Xəstəxanasının cərrahiyyə şöbəsinə gətirdik. Şöbənin müdiri, cərrah Hacı Həmidov, həkimlərdən Akif Baxşıyev, Məhəmməd Gözəlov həyatla ölüm arasında çarpışan xəstənin, qardaşım Eldarın harayına çatdılar, ona ilkin tibbi yardım göstərərək axan qanı dayandırdılar. Cərrahiyyə şöbəsində çalışan tibb bacıları Kifayət Salahova, Ofelya Səfərova, Gülnarə Əzizova həkim təyinatı üzrə xəstəyə sistem kursunu, lazımi müalicələri dəqiqliklə yerinə yetirərək qardaşımın həyatının xilas olunmasında, onun sağalmasında səylərinin əsirgəmədilər.

Mən qardaşım Eldar Zeynalovun həyatının xilaskarlarına-Hacıqabul Mərkəzi rayon Xəstəxanası cərrahiyyə şöbəsinin kollektivinə, həkimlər Hacı Həmidov, Akif Baxşıyev, Məhəmməd Gözəlova minnətdarlığımı bildirirəm.

***N.Zeynalov***

# Narçılıq sevimli işim, həm də elimə, obama xidmətimdir



***Rövşən Nəhmədov Hacıqabul şəhərində yaşayır. 30 ilə yaxındır ki, narçılıqla məşğul olur. Təcrübəli sahibkarın 100 hektardan çox nar bağı var.***

Yetişdirdiyi tonlarla məhsulu hər il ölkə əhalisinə, Bakı şəhərində kənd təsərrüfatı yarmarkalarına çıxararaq sərfəli qiymətə satır.

Bu günlərində təcrübəli təsərrüfat adamı Rövşən Nəhmədovla görüşüb söhbət etdik, onun hektarlarla saldığı nar bağlarında olduq, bağlara, ağaclara necə aqrotexniki qaydada qulluq etdiyinin şahidi olduq. Rövşən Nəhmədov söhbət əsnasında bu sahəyə olan marağından, narın insan orqanizminə faydasından danışdı. Bu gün ölkə əhalisinin yaddan çıxıb unudulmuş kənd təsərrüfatı sahələrinə marağından danışdı. Narın müsbət müalicəvi xüsusiyyətləri barədə müsahibimiz qeyd etdi ki, qədim zamanlarda loğman və təbiblərimiz, müasir təbabətdə həkimlərimiz, hətta filosoflarımız gözəl, ürəkaçan sözlər söyləmişlər. Mən də narın xalqımıza, millətimizə verdiyi bu faydanı nəzərə alaraq 30 ildən artıqdır ki, Udulu ərazisində, Hacıqabul şəhərində nar bağları salmışam. Bu bağlara vaxtlı-vaxtında aqrotexniki qaydada qulluq edirəm, ziyanvericilərə qarşı mübarizə tədbirlərini həyata keçirirəm. Yetişdirdiyim tonlarla nar məhsulunu rayon əhalisinə, Bakı şəhərinin kənd təsərrüfatı yarmarkalarında ölkə əhalisinə ucuz, sərfəli qiymətə satıram və ailəmi dolandırıram. Narçılıq həm mənim sevimli işim, həm də doğma elimə-obama, xalqıma, camaatıma xidmətimdir.

Bu gün ölkə Prezidenti İlham Əliyevin iş adamlarına, sahibkarlara dəstək və qayğısı məni də sevindirir, torpaqdan möhkəm yapışmağa ruhlandırır.

Biz də təcrübəli təsərrüfat adamına işlərində uğurlar arzulayıb ondan ayrılırıq.

***Nazim Zeynalov***

## Elan

1998-ci il 28 sentyabr tarıxındə Qubalı-Baloğlan kənd sakini Ağayeva Vüsalə Əlifağa qızının adına verilmiş JN-0003, kodu 91007027 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının qərarı ilə Məmmədov İlham Ağamurad oğlunun adına verilmiş JN-79 saylı Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının qərarı ilə Əzizov İmamverdi Allahverdi oğlunun adına verilmiş JN-11 saylı Torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 25 fevral tarixli qərarı ilə Qasımov Rza Tapdıq oğlunun adına verilmiş JN-0089, kodu 91002038 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Hüseynov Nəzər Qənbər oğlunun adına verilmiş JN-313, kodu 91004018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

## Vətəndaşların nəzərinə!

Yüksək keyfiyyətli toxumluq taxıla ehtiyacı olanlar Navahı kəndində fermer Zeynalov Arif Səfəralı oğluna müraciət edə bilərlər.

Əlaqə telefonu: 050 508 83 22


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200